DOI: https://www.doi.org/10.36719/2663-4619/65/290-292

Gülgəz Məhəmməd qızı Rzayeva
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
Gulgez.rzayeva@yandex.ru

NATİQ ƏLİYEVİN YARADICILIĞINDA XATİRƏ LÖVHƏLƏRİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *heykəltaraşlıq, sənətkar, şair, yazıçı, memorial abidə, plastika*

Artistic features of memorial plaques in the works of Natig Aliyev

Summary

The literaryization of historical events and memories of personalities in world art, the choice of artistic interpretations of images are of particular relevance. The most common type of memorial plaques are a close synthesis of architectural monuments and sculptures and serve as an integral part of the history and material culture of society. Memorial plaques occupy a large place in the work of Natig Aliyev. In addition to the similarity of the portrait in each of his images, the spiritual and psychological fullness of the work comes to the fore.

Key words: *sculpture, artist, poet, writer, memorial, plastic*

Azərbaycanın xalq rəssamı, heykəltəraş, müəllim, professor; SSRİ Rəssamlar İttifaqının üzvü (1986-cı ildən), Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü (2008) olan Natiq Kamal oğlu Əliyev 10 avqust 1958-ci ildə Bakı şəhərində anadan olub. İncəsənətə olan böyük marağı nəticəsində Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində 1974-cü ildən 1978-ci ilə kimi oxuduqdan sonra 1983-cü ildə V.İ.Muxina adına Leninqrad Ali Rəssamlıq Məktəbini fərqlənmə diplomu ilə bitirmiş və 1980-1983-cü illərdə oxuduğu dövrdə Lenin təqaüdü almışdır. P.A.Yakimoviç, V.L.Rybalko, A.G.Dema, L.P.Kalugina kimi sənətkarladan yaradıcılıq sirlərini mənimsəyib.

Yaradıcılığın ilk dövrlərində tədqiqatçıların marağını cəzb edən heykəltəraş haqqında yazılarda qeyd olunur ki, "Ümumiyyətlə gənc heykəltəraşın yaradıcılığında çoxfiqurlu əsərlərə meyl daha gücüdür. Bir əsər daxilində müxtəlif personajlar, müxtəlif xarakterlər ifadə etmək deməkdir. Ayrı-ayrı insan münasibətlərini təsvir etməklə müəllif demək istəyir ki, hərənin öz dünyası var." (4)

Natiq Əliyevin yaradıcılığında memorial lövhələr özünəməxsus yer tutur. Heykəltəraşın Memorial lövhələrində obrazın portret oxşarlığından əlavə əsərin mənəvi-psixoloji dolğunluğuna, o cümlədən obrazın dərin və duyğulandırıcı olmasına diqqət edirdi.

Natiq Əliyevin görkəmli dramaturq, nasir, publisist Məmməd Səid Ordubadiyə həsr etdiyi əsər heykəltəraşın maraqlı memorial lövhələrindən (1987) biridir. Qorelyef binanın tinində qoyulub. Buna görə də əsərə 2 tərəfdən baxmaq olur. Ordubadi çox gərgin və aqressiv təsvir olunub. Portret ideallaşdırılmayıb, qırışlarla təsvir edilib. Lakin Ordubadinin üzündəki bu qırışlar yaşlılığın gətirdiyi qırışlar deyil, düşüncəliliyin qırışlardır.

Azərbaycan uşaq ədəbiyyatının banilərindən biri olan Abdulla Şaiqin memorial lövhəsi (1988) yaşadığı binanın küncündə yerləşdirilib. Xatirə lövhəsinə yalnız frontal baxdıqda bütövlükdə oxunur. Kompozisiya bir-birinin içindən keçən yarımdairəvi lövhələrdən ibarətdir. Bu yarımdairəvi lövhələr üzərində şairin portreti yerləşdirilib. Şair kitaba dirsəklənib, sol əlini gicgahına qoymuş sağ əlində isə kitabla təsvir olunub. Abdulla Şaiq yaşlı vaxtında və düşüncəli tərzdə təsvir olunub. Heykəltəraş şairin daxili obrazını açıb, onu tamaşaçıya çatdırmağa çalışıb.

Xurşidbanu Natəvan dövrünün böyük ictimai və dövlət xadimi idi. Lakin Natiq Əliyevin Yazıçılar Birliyinin kitabxanasında yer alan memorial lövhədə (1989) Natəvan şairə kimi təsvir edilmişdi. Bu memorial lövhə özünəməxsus estetik keyfiyyətləri ilə seçilir. Şairənin simasında heykəltəraş zəriflik, kübarlıq bərabər Azərbaycan xanımına xas olan bir sıra xüsusiyyətləri yaradıb.

Natiq Əliyevin əsərlərinin bədii xüsusiyyəti haqda olan elmi yazılarda tişə ustasının sənətkarlığı açıq şəkildə qeyd olunur. "Onun hər bir cizgisi – paltarının qırışlarından tutmuş kəlağayısınadək, əlindəki qələmdən zərif barmaqlarının vəziyyətinə qədər – hər şey onu yaradıcı bir obraz, nəcib insan, milli xüsusiyyətlərə malik bir qadın kimi canlandırmaq istəyindən qaynaqlanan insani-yaradıcı dəyərlərdir. Heykəltəraşın yaratdığı bu barelyefdə obrazı səciyyələndirən xüsusiyyətlər müəllif tərəfindən çox uğurla tapılan yaddaqalan plastik vasitələrlə ifadə olunub. həm də "Xan qızı" ayması daşıyan şairə şamdanın işığında dövrünə xas quş lələyi ilə şeir yazarkən təsvir olunub. Onun geyimi, əyləşdiyi stulun arxalığı, onun

baş örtüyü, ümumiyyətlə, kompozisiyanın quruluşu onun yüksək dəyərlərə malik olduğunu təstiqləyən atribut və detallardır.” (2, 44)

Azərbaycan ədəbiyyatşünaslığı və ədəbi tənqidinin təşəkkülü və inkişafında müstəsna xidmətləri olan Məmməd Arif Dadaşzadənin memorial lövhəsi Azərbaycan yazıçılar birliyinin adını daşıdığı kitabxanasında yerləşir. “Bu barelyefin ərsəyə gətirilməsi 1990-cı ilə - məkanda kommunist ideologiyasının süqutu dövrünə təsadüf etdiyindən bədii həll demək olar ki, sovet dövrünün çoxsaylı barelyeflərində mütərəqqiliyi və müasirliyi ilə seçilir.” (2, 45)

1990-2015-ci illər Natiq Əliyevin yaradıcılığının ən məhsuldar dövrü sayılır. 20-dən çox xatirə lövhəsinin müəllifi olan heykəltəraşın obrazlarına qəhrəmani nikbinlik xasdır.

Heykəltəraşın müəllifi olduğu Cəlil Məmmədquluzadənin memorial lövhəsi (1992) olduqca maraqlı kompozisiyaya malikdir. Ön planda Mirzə Cəlilin əyləşmiş portretini görürük. O, sol qolu ilə oturacağın kürsülüyünə dirsəklənib, sağ əlini çənəsinə qoyub və yatmış müsəlmanları oyatmağın yollarını axtarır. Mirzə Cəlil bütün ömrünü Molla Nəsrəddin jurnalı vasitəsiylə xalqı qəhər yuxusundan oyatmağa çalışırdı. Lövhədə Cəlilin sol tərəfində Molla Nəsrəddin jurnalında çap olunan “Ey mənim müsəlman qardaşlarım, sizi deyib gəlmişəm” məqaləsindən bir hissə yazılıb. Sağ tərəfdə isə Molla Nəsrəddin jurnalının üz qapağında istifadə olunan karikatura təsvir edilib.

Azərbaycanın hərbi xadimi, artilleriya general-leytenantı Hüseyn Rəsulbəyova (1993) həsr olunmuş xatirə lövhəsini xüsusilə qeyd etmək lazımdır. Düzbucaqlı çəhrayı qranit lövhə üzərində general-leytenant Hüseyn Rəsulbəyovun mərmər portreti yerləşdirilib. Müəllif çatılmış qaşlar, iti baxışları ilə igid, qorxmaz hərbçi obrazını mükəmməl şəkildə icra edib. Hərbi geyimdə təsvir olunmuş generalın yaxasındakı sünbül və çiyinlərindəki hərbi poqonlar onun peşəsini vurğulayan atributlardır. Portretin alt hissəsində, qranitdə hərbçi haqda məlumat yerləşdirilib.

Dövlət xadimi Afiyəddin Cəlilovun memorial lövhəsi (1994) yaşadığı evin fasadına vurulub. Bürünc qorelyefdə Cəlilov olduqca sakit və nikbin şəkildə təsvir edilib. Nisbətən sola dönüb və əllərini bir-birinin üzərində qoyub. Onun üzündəki mülayim təbəssüm, əllərinin qoyuluşu, o cümlədən lövhədəki müsbət abu-hava əsərin qəhrəmanına qarşı böyük rəğbət durmağa şərait yaradır.

Görkəmli fizik Lətif İmanovun qorelyefi (1995) maraqlı kompozisiyaya malikdir. Parçalanmış qranitin içində fizik sol profildən təsvir olunub. Yanındakı molekul və atomlar İmanovun peşəsini ön plana çıxarır. Aşağıda isə başqa bir düzbucaqlı qranit lövhədə fizik haqqında qısa məlumat yazılıb.

Natiq Əliyevin görkəmli müğənni Şövkət Ələkbərovaya (1996, 2000) həsr etdiyi memorial lövhə mərmərdən hazırlanıb. Şövkət xanımın mərmər portreti çox mülayimdir. Sol əli ilə çənəsini tutub, başını isə sağ çiyninə tərəf çevirib. Qadının təbəssüm edən baxışları ifadəni dərinləşdirir. Lirizm və obrazlılıq bizə portreti səmimi şəkildə çatdırır. Hər xırda detallar peşəkarlıqla işlənilib. Sırğalar, saç düzümü, geyimin qırışları, paltardakı yaxa sancağı arxa fonun kələ-kötürlüyü ilə təzad yaradır.

Nasir, dramaturq İlyas Əfəndiyevin memorial lövhəsi (1997) çox sadə şəkildə həll edilib. Nahamar arxa fon bütün diqqəti ön plana yönəldir. Dramaturqun əlindəki kitabı möhkəm özünə sıxıb. Sağ aşağıda yazıçının imzası var.

Azərbaycanın ilk qadın xalq şairi Mirvarid Dilbazidin memorial lövhəsi (2004) diqqətə layiqdir. Çəhrayı qranit lövhədə şairənin bürünc barelyefi təsvir olunub. Kompozisiyanın tamamını Dilbazinin kələğayısı təşkil edir. Başındakı kələğayının boğaz hissəsini sol əli ilə tutur, sağ əli isə dizinin üstündədir. Heykəltəraş Dilbazini yaşlı vaxtlarında, müdrik bir ağbirçək kimi təsvir edib. Şairənin obrazında Azərbaycan qadınına xas olan ən ali keyfiyyətləri görmək mümkündür. Müəllif örpəyin qatlarını, üzərindəki naxışlarını, şairənin yaşlı əllərini incəliklə işləyib. Şairə düşünən, uzaqlara dalmış baxışları, kədərli gözlərlə təsvir olunub. Əsərin sol aşağı küncündə müəllif öz adını haşiyə içərisində yazıb.

Mühacir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Əli Tudəyə həsr olunmuş memorial lövhə (2005) yaddaqalan kompozisiyalardan biridir. Üfüqi kompozisiyada şairin portreti həll edilib. Şairin oturmuş vəziyyətdə təsvir edilib. Əllərini qarşısındakı stolun üzərinə uzadıb, sol əli ilə vərəqin yuxarı küncündən tutub. Sağ qolu ilə oturacağın tutacağına dirsəklənib və əlini vərəqlərin üstünə qoyub. Köynəyinin açılmış düymələrindən, aşağı salınmış qalstukdan gərgin bir iş getdiyini anlamaq mümkündür. Şairin uzağa baxan açıq gözləri, bir-birinə sıxılmış detalları portretə dərin ifadəlilik qatıb.

Nərimanov prospekti 11 ünvanında yerləşən memorial lövhə olduqca maraqlı kompozisiyası ilə diqqət cəlb edir. Bu qorelyef Natiq Əliyevin Cabir Novruzun obrazına ilk müraciəti deyildi, heykəltəraş həm də şairin Fəxri xiyabanda yerləşən qəbirüstü monumental heykəlinin də müəllifidir. Bürüncdən hazırlanmış lövhədə memarlıq elementi olan kapitel və bu kapitelin üstündə şairin çələnglə əhatə olunmuş düşüncəli portreti verilib. Arxa fondakı vərəqlərdə onun yaradıcılıq mirasının ən gözəl nümunələrindən olan “Ey həyat, sən nə qəribəsən”, “Sağlığında qiymət verin”, “İnsanları tanımaq olmur” kimi şeirləri ilə Natiq Əliyev

qəhrəmanının yaradıcılığına diqqət yetirib. Portretin alt hissəsində yerləşən vərəqin üzərində şairin adı "Cabir Novruz" verilib. Sağ aşağı tərəfdə mürəkkəb qabı və lələk isə onun peşəsini vurğulayan digər detallardır.

Heykəltəraşın Cabir Novruza həsr etdiyi əsər haqqında aparılan elmi tədqiqatda bildirilir ki, "Şairin portretinin fonunda təsvir olunmuş kitablarının adından da göründüyü kimi o, insanları yüksək mənəviyyata səsləyən yaradıcılığa və yüksək bəşəri mənəvi dəyərlərin tərənnüm edən bədii irs sahibidir. Elə bu cür qiymətli irsin sahibi olması da onun xatirəsinə olan bədii - heykəltəraşlıq münasibətini şərtləndirmişdir. Cabir Novruzun belə bir zəngin fonda yerləşdirilmiş portreti kürsülərdə gənclik hərarətiylə şeirlər deyən və bu hərarəti dinləyicilərinə sona kimi qətrə - qətrə çatdıran bir şairin zahiri görkəminin əksidir. Ümumilikdə isə görkəmli söz xiridarı olan şairin haqqında söz açdığımız xatirə lövhəsi Cabir Novruz şəxsiyyətinə və yaradıcılığına "obrazlı güzgü" tutan yaddaqalan sənət nümunəsidir." (2, 42)

Azərbaycanın görkəmli ictimai xadimi Nəsrulla Nəsrullayevin memorial lövhəsi sadə kompozisiyaya malikdir. Natiq Əliyev qara qranit fonda Nəsrullayevin ağ mərmər sol tərəfdən profil portretini yerləşdirib. Olduqca zəhmli təsvir olunan Nəsrullayevin obrazında heykəltəraşın yaradıcılığına xas olan dolğun psixoloji tutumu görmək mümkündür.

Natiq Əliyevin yaradıcılığının maraqlı nümunələrindən biri olan Azərbaycan şairi və publisisti Zeynal Cabbarzadənin memorial lövhəsini (2007) qeyd etmək lazımdır. Qara qranit fonda buruşdurulmuş kağız vərəqlərin üzərində şairin portreti yerləşdirilib. Cabbarzadənin üzü sağ tərəfə aşağıya baxır. Sağ qolu sol əlinə dirsəklənib və əli ilə çənəsini tutur.

Xalq yazıçısı İsmayıl Şıxlının memorial lövhəsi (2011) qara qranitin ekspressiv həlli ilə seçilir. Qranitin alt hissəsi cilalanıb və burada yazıçı haqda məlumat verilib. Yuxarı hissə isə cilalanmayıb və burada yazıçının portret barelyefi yerləşir. Sanki yazıçı canlanıb barelyefdən çıxmağa "can atır". Bu da heykəltəraşın istedadını bir daha əyani şəkildə sübut edir.

2012-ci ildə Natiq Əliyev Abdulla Şaiqin obrazına yenidən müraciət edir. Bu dəfəki memorial lövhə isə şairin mənzil muzeyinin fasadı üçün hazırlanmışdır. Birinci lövhədən həm kompozisiya, həm də material olaraq fərqlənirdi. Qara qranitin fonunda şairin bürünc portreti təsvir olunub. Mülayim, səmimi gülümsəməsi ilə müəllif tamaşaçıda əsərinin qəhrəmanına qarşı rəğbət yaradır.

References

1. Aliyev Z. Stages of development of Azerbaijan sculpture in the XX century. Baku. Science and Education. 2016. S. 190
2. Gasimov F. The work of People's Artist Natig Aliyev in the context of modern Azerbaijani sculpture. Philosophy of Art Criticism. Doc. Dissertation. Baku. 2014. S. 132
3. Gasabova I. Image of Justice of People's Artist Natig Aliyev.// "Palitra" gas. 2018, 20 November. S. 13
4. Nazarova E. Maybe we will meet again.// "Gobustan" art collection. 1987. №3 p.54-58

Rəyşi: sənət.f.d. G.Seyidəhmədli

Göndərilib: 15.04.2021 Qəbul edilib: 16.04.2021